


BİZ BİRLİKDƏ GÜCLÜYÜK!

AFFA
Association of Football
Federations of Azerbaijan

**Düz, 18 il əvvəl baş verən hadisə onun həyatını büsbütün dəyişdi. 1992-ci ilin soyuq payızında Ağdamın Qazançı kəndində mina partlayışı İlqar Həmzəyevin bir çox arzularının üstündün xətt çəkdi. Mənfur düşmənlərimizin torpaqlarımıza hücumu bir çox mərd azəri oğulları kimi İlqarı Vətənin müdafiəsinə qalxmağa vadar etdi.**



## İlqar Həmzəyev:

# "İdmanda əldə edə bilmədiyim nəticələri oğlum qazanacaq"

İlqar Həmzəyev 1971-ci ildə Bakıda anadan olub. Hələ kiçik yaşlarından onun idmana böyük marağı var idi. Bunun nəticəsidir ki, İlqar xalqımıza xas olan güləş növünü seçir. O, "Xəzər" idman klubunda Yunan-Roma güləşi bölməsinə yazılır. Kiçik İlqar tanınmış məşqçi Xanmirzə Məlikəliyevin başçılığı ilə güləşin sirlərini öyrənməyə başlayır. Qısa müddət ərzində məşqlərə ciddi yanaşma İlqarın fiziki cəhətdən güclü idmançı kimi yetişməsində böyük rol oynayır. Artıq 1986-cı ildə 15 yaşlı istedadlı güləşçi yarışlarda ilk ciddi sınağına çıxır. Həmzəyev 42 kq çəki dərəcəsində Moskvanın Olimpiya kəndində təşkil olunan turnirdə bürünc medal qazanır. Bu, İlqarın böyük idmanda ilk uğuru idi. O, 1986-1988-ci illərdə çıxış etdiyi "Xəzər" idman klubunu SSRİ birinciliyində təmsil edir. Novosibirsk şəhərində təşkil olunan birincilikdə İlqar qalib olaraq, həm də idman ustalığına namizəd normasını yerinə yetirir. 1988-ci ildə isə daha bir beynəlxlaq yarışda iştirak edərək, bu dəfə gümüş medal qazanır. Amma hərbi xidmətə yollanması güləşçinin idmançı karyerasını davam etdirmək perspektivinə son qoyur. Keçmiş SSRİ ordusunda xidmət edən Həmzəyev, erməni qəsbkarlarının Azərbaycan torpaqlarına hücumlarına biganə qala bilmir. Nəticədə İlqar bütün vətənpərvər oğullarımız kimi torpaqlarımızın düşmənlərdən azad edilməsi üçün cəbhəyə yollanır.



İlqarın müharibə həyatı Ağdamdan başlayır. 1992-ci ildə cəbhənin ən qaynar nöqtələrindən biri Ağdama yollanan Həmzəyev, burada bir çox döyüşlərdə fəal iştirak edir. Amma onun son döyüşü həmin il oktyabrın 14-də Qazançı kəndində olur. Düşmənlə ağır döyüş zamanı İlqar mina partlayışı nəticəsində ağır yaralanır. Çoxsaylı yaralarla hospitala yerləşdirilən döyüşçünün həyatını həkimlərimizin səyi nəticəsində xilas etmək mümkün olur. Lakin İlqar yenidən döyüş meydanına qayıda bilmir. 18 il keçməsinə baxmayaraq o, hələ də Qarabağ müharibəsində aldığı yaraların acısını çəkir. Bugün də müalicəsini davam etdirən Həmzəyev, şəhidlərimizin qanının yerdə qalmayacağına və tezliklə torpaqlarımızın yadellilərdən azad olacağına inanır: "Kiçik yaşlarımdan idmana marağım çox idi. Bu amil mənim məhz güləşi seçməyimdə böyük rol oynadı. İdman hər bir insan üçün sağlam həyət, mənəvi güc və ruhi qida deməkdir. İdmançı kimi bir çox nailiyyətlər əldə etməyi qarşıma məqsəd qoysam da, arzularımı tam gerçəkləşdirə bilmədim. Əvəzində mən torpaqlarımızın ermənilərdən azad olunmasında fəal iştirak etdim. Döyüş meydanı olmasına baxmayaraq, idmançı kimi qarşılaşdığım çətinliklər və topladığım təcrübə mənə dəstək olurdu. Amma döyüşlərin bi-

# DÖYÜŞƏ HAZIRIQ

rində aldığım ağır yaralar mübarizəni sonadək davam etdirməyə imkan vermədi. Hazırda Azərbaycan ordusu xeyli güclənib və torpaqlarımızın hər qarışının yağı düşməndən azad olunacağı günün uzaqda omlayacağına əminəm".

İlqar Həmzəyev Qarabağ müharibəsinin II qrup əlilidir. Bütün müharibə iştirakçıları kimi İlqar da dövlətin diqqət və qayğısından kənarda qalmayıb. O, ölkə rəhbərliyinin dəstəyini daima hiss etdiyini bildirir. Həmzəyev 2001-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən Mehdiabad qəsəbəsində mənzillə təmin edilib. 1999-cu ildə isə dövlətin dəstəyi sayəsində müharibə əlili Həcc ziyarətində olub. Elə həmin ildə də İlqar, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev cənablarının göstərişi ilə ona ayrılan ərazidə "Olimpiya" idman mağazasını yaradır. Bu amil onun idmana nə qədər bağlı olduğunu bir daha özündə əks etdirir. O, cəmiyyətimizin sağlam həyat tərzi sürməsi üçün əlindən gələni edir. Mağazada müxtəlif idman geyimləri, trenajor və aksesuarların satışı təşkil olunub.

Hazırda Azərbaycanın tanınmış güləşçiləri İlqarla dostluq edirlər. Olimpiya Çempionu, ikiqat dünya çempionu Fərid Mansurov, Olimpiya mükafatçısı və Avropa çempionu Rövşən Bayramov və Olimpiya və dünya mükafatçısı Vitali Rəhimov daima öz həmkarıyla ünsiyyət qurur, ona mənəvi dəstək verirlər. Yunan-Roma güləşi üzrə yığmamızın baş məşqçisi Fərid Mansurov İlqar haqqında bunları dedi: "İlqar torpaqlarımızın azad olunması üçün döyüş meydanına atıldı və yaralandı. Bu, hər birimiz üçün örnək ola biləcək hadisədir. Onun idmançı kimi əldə etmədiyi uğurları müstəqil Azərbaycanda biz həyata keçirdik. Torpaqlarımız da tezliklə düşməndən azad olunacaq. Ona görə İlqar tam rahat ola bilər".

Onun ailəsində gələcəyin idmançısı və döyüşçüsü böyüyür. İlqar həyata keçirə bilmədiyi arzularını oğlu Əlinin reallaşdıracağına ümid edir. 12 yaşlı Əli cüdo ilə məşğul olur. Əvvəlcə futbol bölməsinə yazılan Əli, sonradan Olimpiya idman növü olan cüdoya maraq göstərir. Atası da onun bu istəyinə qarşı çıxmayaraq, onu adıçəkilən idman növünə yazdırır. Əli hazırda "Nəqşi-Cahan" klubunda cüdonun sirlərini öyrənir. Əlinin məşqçisi, idman ustası Emin Həsənov onun istedadlı olduğunu və gələcəkdə peşəkar idmançı kimi yetişmək perspektivi olduğunu diqqətə çatdırdı: "Əlinin cüdoya çox marağı var. O, məşqlərdə səylə çalışır və bu, bir məşqçi kimi məni sevindirir. Çox çalışarsa, gələcəkdə böyük idmançı olmaq imkanı var. Valideynləri də Əliyə böyük dəstək olurlar. Bu, idmanda çox böyük amildir. Ümid edirik ki, İlqarın idmanda əldə edə bilmədiyi nailiyyətləri oğlu Əli qazanacaq".

**İlqar Həmzəyev:** *"Qarabağ döyüşlərində iştirak edən vətəndaşlarımıza göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz dərin təşəkkürümü bildirirəm. Ramin kimi, Mübariz kimi qəhrəman oğulları olan bir xalqın övladı olmaqla fəxr edir və Ali Baş Komandanın əmrini gözləyirəm.*


